## Doğum və ölüm

2025-ci ilin yanvar-iyun aylarında 546 doğulan körpə və 275 ölüm halı qeydə alınmışdır. Vəfat edənlərin 4 nəfəri 1 yaşa qədər ölən uşaqlar olmuşdur. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə doğulanların sayı 9,8-dən 9,9-a artmış, ölənlərin sayı isə 5,3-dən 5,0-ə düşmüşdür

| Göstəricilərin adı | Nəfər | | Əhalinin hər min nəfərinə | |
|---|---|---|---|---|
| | 2025-ci ilin yanvar-iyun aylarında* | 2024-cü ilin yanvar-iyun aylarında | 2025-ci ilin yanvar-iyun aylarında* | 2024-cü ilin yanvar-iyun aylarında |
| Təbii artım | 271 | 246 | 4,9 | 4,5 |
| Doğulanlar | 546 | 537 | 9,9 | 9,8 |
| Ölənlər | 275 | 291 | 5,0 | 5,3 |
| *o cümlədən:* 1 yaşa qədər ölənlər | 4 | 6 | 7,3 | 11,2 |

*** İlkin məlumat**

***Saatlı Rayon Statistika İdarəsi***

## Nikah və boşanmalar

Cari ilin yanvar-iyun aylarında 301 nikah və 86 boşanma halları qeydə alınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə nikahların sayı 4,5-dən 5,5-ə artmış, boşanmaların sayı isə 1,8-dən 1,6-ya düşmüşdür.

| Göstəricilərin adı | Nəfər | | Əhalinin hər min nəfərinə | |
|---|---|---|---|---|
| | 2025-ci ilin yanvar-iyun aylarında* | 2024-cü ilin yanvar-iyun aylarında | 2025-ci ilin yanvar-iyun aylarında* | 2024-cü ilin yanvar-iyun aylarında |
| Nikahlar | 301 | 245 | 5,5 | 4,5 |
| Boşanmalar | 86 | 97 | 1,6 | 1,8 |

*** İlkin məlumat**

***Saatlı Rayon Statistika İdarəsi***

## Makroiqtisadi göstəricilər

2025-ci ilin yanvar-iyun aylarında ümumi məhsul buraxılışının həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 8,7 faiz azalaraq 215001,7 min manat olmuşdur.

Ümumi məhsul buraxılışının həcmi müqayisəli qiymətlərlə informasiya və rabitə sahəsi üzrə 62,9 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə 61,0 faiz, tikinti sahəsi üzrə 11,2 faiz, ticarət: nəqliyyat vasitələrinin təmiri sahəsi üzrə isə 0,7 faiz artmış, sənaye sahəsi üzrə 26,0 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə isə 9,5 faiz azalmışdır.

Cari ilin yanvar-iyun aylarında əsas kapitala yönəldilmiş investisiyalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 29,8 faiz, pərakəndə ticarət dövriyyəsinin həcmi müqayisəli qiymətlərlə 0,7 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi müqayisəli qiymətlərlə 1,5 faiz, nəqliyyat sektorunda fiziki şəxslər üzrə yük daşınması 6,3 faiz, nəqliyyat sektorunda fiziki şəxslər üzrə sərnişin daşınması 5,7 faiz çox olmuşdur. 2025-ci ilin yanvar-may ayları ərzində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 659,0 manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 25,6 manat və ya 4,0 faiz çox olmuşdur.

### İqtisadiyyatın əsas sahələrində məhsul buraxılışı

*** İlkin məlumat**

| Göstəricilərin adı | 2025-ci ilin yanvar-iyun aylarında faktiki qiymətlərlə (min manatla)* | 2024-cü ilin yanvar-iyun aylarında faktiki qiymətlərlə (min manatla) | Əvvəlki ilin eyni dövrünə nisbətən fiziki həcm indeksi, faizlə |
|---|---|---|---|
| **Ümumi məhsul buraxılışının həcmi, cəmi** | **215001,7** | **205453,6** | **91,3** |
| *o cümlədən:* Sənaye | 43489,6 | 36671,2 | 74,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 110940,9 | 112993,7 | 90,5 |
| Tikinti | 4071,6 | 3661,0 | 111,2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 3091,9 | 1890,4 | 161,0 |
| İnformasiya və rabitə | 1158,4 | 711,2 | 162,9 |
| Ticarət: nəqliyyat vasitələrinin təmiri | 52249,9 | 49526,1 | 100,7 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Sənayenin əsas göstəriciləri

2025-ci ilin yanvar-iyun ayları ərzində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 43489,6 min manatlıq və ya 2024-cü ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 26,0 faiz az sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İstehsalın 90,26 faizi sənaye məhsulları, 9,74 faizi isə sənaye xarakterli xidmətlərdən ibarət olmuşdur.

Sənaye məhsulunun 90,26 faizi emal sektorunda, 7,88 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1,86 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Ümumi istehsalda qeyri-dövlət sektoru 66,70 faiz, dövlət sektoru isə 33,3 faiz təşkil etmişdir.

### Sənaye müəssisələri tərəfindən natura formasında istehsal olunmuş məhsullar müqayisəli (tonla

| Məhsulun adı | 2025-ci ilin yanvar-iyun aylarında | 2024-cü ilin yanvar-iyun aylarında | 2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Pambıq mahlıcı | 12126,4 | 9945,6 | 121,9 |
| Pambıq çiyidi | 15021,3 | 11982,7 | 125,3 |
| Pambıq tiftiyi (linti) | 466,3 | 477,1 | 97,7 |
| Pambıq ulyuku | 71,3 | 174,0 | 41,0 |
| Biyan  kipi | 553,5 | 334,6 | 165,4 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Heyvanların baş sayı haqqında

2025-ci ilin 1 iyul vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə iribuynuzlu mal-qaranın sayı 69828 baş, o cümlədən, inək və camışların sayı 33443 baş, qoyun və keçilərin sayı 116579 baş olmuşdur. 2024-cü ilin müvafiq dövrünə nisbətən iribuynuzlu mal-qaranın sayı 1779 baş, qoyun və keçilərin sayı isə 460 baş artmışdır.

İribuynuzlu mal-qaranın tərkibində inək və camışların sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 878 baş artmışdır.

Heyvandarlıq sahəsində fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri üzrə 2025-ci ilin 1-i iyul vəziyyətinə iribuynuzlu mal-qaranın sayı 2632 baş, o cümlədən, inək və camışların sayı 1239 baş, qoyun və keçilərin sayı isə 8483 baş olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 2088 baş, o cümlədən, inək və camışların sayı 984 baş artmış, qoyun və keçilərin sayı isə 164 baş azalmışdır.

Heyvandarlıq sahəsində 20 kəndli fermer təsərrüfatı fəaliyyət göstərir.

### Mal-qaranın sayı (bütün təsərrüfat kateqoriyaları üzrə), baş

| Göstəricilərin adı | 01.07.2025-ci il tarixinə | 01.07.2024-cü il tarixinə | 2024-cü ilin müvafiq dövrünə nisbətən fərqi +,- |
|---|---|---|---|
| İribuynuzlu mal-qara | 69828 | 68049 | 1779 |
| *o cümlədən:* inək və camışlar | 33443 | 32565 | 878 |
| Qoyun və keçilər | 116579 | 116119 | 460 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Kənd təsərrüfatı haqqında ümumi məlumat

Rayonunun iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutur. 2025-ci ilin ilk 6-ayı ərzində istehsal edilmiş kənd təsərrüfatı üzrə məhsul buraxılışı ilkin hesablamalara əsasən 110940,9 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 9,5 faiz az olmuşdur. İstehsal olunmuş kənd təsərrüfatı məhsullarının 62993,6 min manatı, və ya 56,8 faizi bitkiçilik məhsullarının, 47947,3 min manatı və ya 43,2 faizi isə heyvandarlıq məhsullarının payına düşmüşdür.

| Sahələrin adı | 2025-ci il yanvar-iyun faktiki qiymətlərlə | 2024-cü il yanvar-iyun faktiki qiymətlərlə | Ümumi istehsalda xüsusi çəki, faizlə |
|---|---|---|---|
| Kənd təsərrüfatı sahəsi | 110940,9 | 112993,7 | 100,0 |
| *o cümlədən:*<br>bitkiçilik | 62993,6 | 69617,4 | 56,8 |
| heyvandarlıq | 47947,3 | 43376,3 | 43,2 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Heyvandarlıq məhsullarının istehsalı haqqında

2025-ci ilin yanvar-iyun ayları ərzində ət istehsalı (diri çəkidə) 3668,2 ton, süd istehsalı 20688,7 ton, yumurta istehsalı 7633,0 min ədəd, yun istehsalı 204,2 ton, barama istehsalı 0,3 ton olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 27,5 ton ət, 3,9 ton süd, 62,0 min ədəd yumurta, 75,0 ton yun çox istehsal olunmuşdur. Barama istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,6 ton az olmuşdur.

| Məhsulun adı | Ölçü vahidi | 2025-ci ilin yanvar-iyun aylarında | 2024-cü ilin yanvar-iyun aylarında | 2024-cü ilin müvafiq dövrünə nisbətən, | |
|---|---|---|---|---|---|
| | | | | +;- | faizlə |
| Ət (diri çəkidə) | ton | 3668,2 | 3640,7 | 27,5 | 100,76 |
| Süd | ton | 20688,7 | 20684,8 | 3,9 | 100,02 |
| Yumurta | min ədəd | 7633,0 | 7571,0 | 62,0 | 100,82 |
| Yun | ton | 204,2 | 129,2 | 75,0 | 158,05 |
| Barama | ton | 0,3 | 0,9 | -0,6 | 33,33 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Tikinti işləri haqqında

2025-ci ilin yanvar-iyun ayları ərzində tikinti təşkilatları və fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 4071,6 min manat həcmində tikinti işləri yerinə yetirilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 11,2 faiz çox olmuşdur. Görülmüş tikinti işlərinin 2095,5 min manatını və ya 51,47 faizini inşa, yenidənqurma və bərpa işləri, 621,9 min manatını və ya 15,27 faizini əsaslı təmir, 1354,2 min manatını və ya 33,26 faizini cari təmir işləri təşkil etmişdir.

### Yerinə yetirilmiş tikinti işlərinin dəyəri, min manat

| Sahələrin adı | 2025-ci ilin yanvar-iyun aylarında | 2024-cü ilin yanvar-iyun aylarında | 2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Cəmi tikinti işləri | 4071,6 | 3661,0 | 111,2 |
| *o cümlədən:* inşa, yenidənqurma və bərpa işləri | 2095,5 | 968,7 | 2,1 d |
| əsaslı təmir işləri | 621,9 | 1129,5 | 55,1 |
| cari təmir işləri | 1354,2 | 988,6 | 137,0 |
| sair tikinti işləri | - | 574,2 | - |

***Saatlı Rayon Statistika İdarəsi***

## İnvestisiyalar haqqında

2025-ci ilin yanvar-iyun ayları ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyanın həcmi 6291,9 min manat olaraq əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 29,8 faiz çox olmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 6088,6 min manatı və ya 96,7 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. İstifadə olunan investisiyanın 4003,2 min manatı və ya 63,6 faizi dövlət vəsaiti, 2288,7 min manatı və ya 36,4 faizi isə qeyri dövlət vəsaitləri hesabına olmuşdur.

***Saatlı Rayon Statistika İdarəsi***

## Nəqliyyatın əsas göstəriciləri haqqında

2025-ci ilin yanvar-iyun ayları ərzində nəqliyyat müəssisələri və nəqliyyat sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən istehsal olunmuş və göstərilmiş xidmətlərin həcmi 3091,3 min manat olmuş və ötən ilin müvafiq dövrünə nisbətən 1200,9 min manat və ya müqayisəli qiymətlərlə 61,0 faiz artmışdır. Məhsul buraxılışının 1237,1 min manatı hüquqi şəxslərin, 1854,2 min manatı isə fiziki şəxslərin payına düşür. 2025-ci ilin yanvar-iyun ayları ərzində avtomobil nəqliyyatı ilə 3925,0 min sərnişin, 285,0 min ton yük daşınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 210,0 min və ya 5,7 faiz çox sərnişin, 17,0 min ton və ya 6,3 faiz çox yük daşınmışdır.

Nəqliyyat sektorunda məhsul buraxılışı və fiziki şəxslər tərəfindən sərnişin və yük daşınmanın həcmi aşağıdakı cədvəldə göstərilmişdir.

### Nəqliyyat sektorunun əsas göstəriciləri

| Sahələrin adı | 2025-ci ilin yanvar-iyun aylarında | 2024-cü ilin yanvar-iyun aylarında | 2024-cü ilin müvafiq dövrünə nisbətən, +,- |
|---|---|---|---|
| Nəqliyyat sektorunda məhsul buraxılışı (min manat) | 3091,3 | 1890,4 | 1200,9 |
| *o cümlədən:* hüquqi şəxslər üzrə, min manat | 1237,1 | 127,4 | 1109,7 |
| fiziki şəxslər üzrə, min manat | 1854,2 | 1763,0 | 91,2 |
| Sərnişin daşınma, min sərnişin | 3925,0 | 3715,0 | 210,0 |
| Yük daşınmanın həcmi, min ton | 285,0 | 268,0 | 17,0 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Rabitənin əsas göstəriciləri haqqında

2025-ci ilin yanvar-iyun ayları ərzində informasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən müəssisə-təşkilatlara və əhaliyə göstərilən xidmətlərin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 1158,4 min manat olmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 447,2 min manat və ya müqayisəli qiymətlərlə 62,9 faiz çox olmuşdur. Rabitə xidmətlərinin həcmindən əhaliyə göstərilən rabitə xidmətlərinin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 1006,4 min manat olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 464,2 min manat çox olmuşdur.

**Rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətlərin faktiki qiymətlərlə dəyəri, min manat**

| Göstəricilərin adı | 2025-ci ilin yanvar-iyun aylarında | 2024-cü ilin yanvar-iyun aylarında | 2024-cü ilin müvafiq dövrünə nisbətən, +,- |
|---|---|---|---|
| Rabitə xidmətlərindən əldə olunan gəlir (ƏDV-siz) | 1158,4 | 711,2 | 447,2 |
| *ondan:*<br>əhaliyə göstərilən rabitə xidmətlərinin dəyəri (ƏDV-siz) | 1006,4 | 542,2 | 464,2 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Pərakəndə ticarət dövriyyəsi haqqında

2025-ci ilin yanvar-iyun ayları ərzində pərakəndə ticarət dövriyyəsinin həcmi 163280,8 min manat olmuşdur ki, bunun da 12776,9 min manatı və ya 7,8 faizi hüquqi şəxslərin, 150503,9 min manatı və ya 92,2 faizi fərdi sahibkarların payına düşür.

Pərakəndə ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8511,8 min manat və ya müqayisəli qiymətlərlə 0,7 faiz çox olmuşdur.

Pərakəndə ticarət dövriyyəsinin 81443,3 min manatı və yaxud 49,9 faizi ərzaq malları, içkilər və tütün məmulatlarının, 81837,5 min manatı və yaxud 50,1 faizi qeyri-ərzaq mallarının payına düşür. Pərakəndə ticarət dövriyyəsinin 100,0 faizi də, özəl sektorun payına düşür. Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkələrində mal qalığı 23502,3 min manat olmuşdur.

### Pərakəndə ticarət dövriyyəsinin həcmi, min manat

| Göstəricilərin adı | Pərakəndə ticarət dövriyyəsinin həcmi | o cümlədən: | | 01.07.2025-ci il tarixinə mal qalığı |
|---|---|---|---|---|
| | | ərzaq malları, içkilər və tütün məmulatları | qeyri-ərzaq malları | |
| Rayon üzrə cəmi | 163280,8 | 81443,3 | 81837,5 | 23502,3 |
| *o cümlədən:* Hüquqi şəxslər üzrə | 12776,9 | 4218,4 | 8558,5 | 2735,1 |
| Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə | 150503,9 | 77224,9 | 73279,0 | 20767,2 |
| *o cümlədən :* Bazar və yarmarkalar üzrə | 61001,4 | 33098,9 | 27902,5 | - |
| Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarlar üzrə | 89502,4 | 44126,0 | 45376,5 | 20767,2 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Ödənişli xidmətlər haqında

2025-ci ilin yanvar-iyun ayları ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 22828,0 min manat olmuş və onun 6099,4 min manatı və ya 26,7 faizi hüquqi şəxslərin, 16728,6 min manatı və ya 73,3 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

Əhaliyə göstərilən ödənişli xidmətin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1904,0 min manat və ya müqayisəli qiymətlərlə 1,5 faiz artmışdır. Göstərilən ödənişli xidmətlərin həcmindən 2964,0 min manatı məişət xidməti olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 199,0 min manat və ya müqayisəli qiymətlərlə 1,6 faiz çox olmuşdur. 2025-ci ilin yanvar-iyun ayları ərzində iaşə dövriyyəsinin həcmi 4085,0 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 302,0 min manat və ya müqayisəli qiymətlərlə 2,4 faiz çox olmuşdur.

### Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi, min manatla

| Göstəricilərin adı | Ödənişli xidmətlərin həcmi 2025-ci il yanvar-iyun | o, cümlədən; məişət xidməti |
|---|---|---|
| Rayon üzrə cəmi | 22828,0 | 2964,0 |
| *o cümlədən :* hüquqi şəxslər üzrə | 6099,4 | - |
| fərdi sahibkarlar üzrə | 16728,6 | 2964,0 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Yeni iş yerləri haqqında

2025-ci ilin yanvar-iyun aylarında rayonda inkişaf edən yeni iqtisadi münasibətlər şəraitində əhalinin iqtisadi fəallığı artmış və fəaliyyət sahələri genişlənmişdir.

Cari ilin ilk 6-ayı ərzində 58 yeni iş yeri açılmışdır ki, bunun 32-si yeni yaradılmış hüquqi şəxslər üzrə, 23-ü mövcud hüquqi şəxslər üzrə, 3-ü isə fəaliyyəti bərpa edilmiş hüquqi şəxslər üzrə olmuşdur.

### Yeni açılmış iş yerlərinin sayı haqqında məlumat (vahid)

| Göstəricilərin adı | 2025-ci ilin I yarısında | İlin əvvəlindən |
|---|---|---|
| Hüquqi şəxslər üzrə yeni açılmış iş yerlərinin sayı | 26 | 58 |
| *o cümlədən:*<br>yeni yaradılmış hüquqi şəxslər üzrə | 21 | 32 |
| mövcud hüquqi şəxslər üzrə | 4 | 23 |
| fəaliyyəti bərpa edilmiş hüquqi şəxslər üzrə | 1 | 3 |

***Saatlı Rayon Statistika İdarəsi***

## Əkinlər haqqında

Kənd təsərrüfatlarında yazlıq bitkilərin kütləvi əkini başa çatmışdır. 1 iyun 2025-ci il tarixinə əkinlərin yekununa dair qəti hesabata əsasən 52790,9 hektar sahədə payızlıq və yazlıq bitkiləri salamat qalmışdır ki, bunun da 48281,9 hektarı və ya 91,5 faizi əhali və fərdi sahibkarlar üzrə, 4509,0 hektar və ya 8,5 faizi kənd təsərrüfatı müəssisələrinin payına düşür.

Ümumi əkin sahəsinin 22473,0 hektarına (42,6 faiz) çoxillik otlar, 14119,0 hektarına (26,7 faiz) dənli və dənli paxlalılar, 12642,1 hektarına (24,0 faiz) texniki bitkilər, 2388,5 hektarına (4,5 faiz) bostan, 743,3 hektarına (1,4 faiz) tərəvəz, 425,0 hektarına (0,8 faiz) isə kartof əkilmişdir.

**Cəmi bitkilərin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha**

| Bitkiçilik məhsullarının adı | 2025-ci il yanvar-iyun | 2024-cü il yanvar-iyun | 2024-cü ilin müvafiq dövrünə nisbətən fərqi +,- |
|---|---|---|---|
| **Cəmi əkin sahəsi** | **52790,9** | **53063,2** | **-272,3** |
| **Dənlilər və dənli paxlalılar-cəmi** | **14119,0** | **17348,0** | **-3229,0** |
| *o cümlədən:*<br>buğda | 8224,0 | 12551,5 | -4327,5 |
| arpa | 5651,0 | 4228,5 | 1422,5 |
| dən üçün qarğıdalı | 178,0 | 557,0 | -379,0 |
| darı | 55,0 | - | 55,0 |
| lobya | 11,0 | 11,0 | - |
| **Texniki bitkilər-cəmi** | **12642,1** | **13007,0** | **-364,9** |
| *o cümlədən:*<br>pambıq | 12634,1 | 12999,0 | -364,9 |
| dən üçün günəbaxan | 8,0 | 8,0 | - |
| **Kartof** | **425,0** | **388,0** | **37,0** |
| **Tərəvəz** | **743,3** | **855,2** | **-111,9** |
| **Bostan bitkiləri** | **2388,5** | **2535,0** | **-146,5** |
| **Meyvə və giləmeyvə** | **3284,9** | **3110,6** | **174,3** |
| **Çoxillik otlar** | **22473,0** | **18930,0** | **3543,0** |

***Saatlı Rayon Statistika İdarəsi***